*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 2, 2025*
*Səh. 246-252*

https://doi.org/10.62837/2025.2.246

**AFAQ ELÇIN QIZI RƏFIYEVA**
***Bakı Dövlət Universitetinin Jurnalistika fakültəsi***
***Milli mətbuat tarixi kafedrasının doktorantı***
***Orcid id:* 0000-0001-5936-4405**
***Afagagayarova@gmail.com***

# "İqbal" səhifələrində türkçülük ideyaları ilə islami dəyərlərin vəhdəti

***Xülasə***

Azərbaycanın Cənuba və Şimala, xanlıqlara parçalanması vahid milli ideologiya və şüurun təşəkkülünü əngəlləmişdi. XIX əsrin sonu və XX əsrin əvvəllərindən türk xalqlarının özünüdərk və özünə qayıdış meyilləri yayılmağa başlamışdı. Ənənəvi Şərq ideologiyasından irəli gələn ürfan, kamillik, humanizm, bəşərilik və maarifçiliyin vəhdətindən ibarət olan Azərbaycançılıq ideologiyası türkçülük, islamçılıq, avropalaşma meyilləri ilə qovuşaraq, yüksək milli-mənəvi dəyərlərə söykənən vahid ideologiya kimi formalaşmağa başladı.

**Açar sözlər: "İqbal", türkçülük, islamlaşmaq, milli-mənəvi dəyərlər, ideologiya**

**Afag Elchin gizi Rafiyeva**

**The unity of Turkic ideas and Islamic values in the pages of "Igbal"**

***Summary***

Разделение Азербайджана на Южный и Северный, а также на ханства препятствовало формированию единой национальной идеологии и сознания. С конца XIX и начала XX века среди турецкого народа начала распространяться тенденция к самосознанию и самовозвращению. Идеология азербайджанства, представляющая собой единство мудрости, совершенства, гуманизма, человечности и просвещения, вытекающая из традиционной восточной идеологии, соединилась с тюркизмом, исламизмом и тенденциями европеизации и стала формироваться как единая идеология, основанная на высоких национально-духовных ценностях.

**Keywords: "Iqbal", Turkism, Islamization, national-spiritual values, ideology**

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 2, 2025*
*Səh. 246-252*

**Афаг Эльчин кызы Рафиева**

**С идеями тюркизма на страницах «Икбала»**
**единство исламских ценностей**
***Резюме***

The division of Azerbaijan into the South and the North, into khanates, prevented the formation of a unified national ideology and consciousness. From the end of the 19th century and the beginning of the 20th century, the tendencies of self-awareness and self-return of the Turkic peoples began to spread. The ideology of Azerbaijaniism, consisting of the unity of wisdom, perfection, humanism, humanity and enlightenment arising from the traditional Eastern ideology, merged with the tendencies of Turkism, Islamism and Europeanization and began to take shape as a unified ideology based on high national and spiritual values.

**Ключевые слова: «Икбал», тюркизм, исламизация, национально-духовные ценности, идеология**

XIX əsrdən M.F.Axundzadə və İ. Qaspiralının təbliği ilə yayılmağa başlayan “türkçülük” ideyalarına XX əsrin əvvəllərində Ə.Hüseynzadə, Ə.Ağaoğlu və Ə.M.Topçubaşovun “islamçılıq” fikirləri də əlavə olunaraq azərbaycanlıları bir ideya ətrafına topladı. İctimai fikrin yüksəlişi dünyada baş verən hadisələrlə birbaşa əlaqədar idi. 1914-cü ildə Birinci dünya müharibəsinin başlaması ilə İngiltərə və Fransa Osmanlıya, Osmanlı dövləti isə Antanta birliyi dövlətlərinə qarşı müharibəyə başladı. Osmanlı dövləti bütün türk-islam dünyasını, xaricdəki və Rusiyadakı türk-müsəlman zümrələrini “cihad”a çağırdı və ictimaiyyətə rəsmi şəkildə elan edilən “Cihad” fətvası ilə Qafqazda “türkçülük” və “turançılıq”ın əsaslarına söykənən siyasi bir plan gerçəkləşməyə başladı **[44: s.33-35 ].**

Həmin dövrdə türkçülük ideologiyasının mərkəzi hesab edilən Rusiyada siyahıyaalınmada burada 100-dən çox türk dilli xalqın yaşadığı göstərilirdi. Türklərin ən çox məhz Rusiyada təzyiq və istismara məruz qaldığı üçün bu məmləkətdə oyanış özünü daha çox göstərirdi. Milli özünəqayıdış və azadlıq uğrunda mübarizə bu intibahın əsasını təşkil edirdi. Türkçülük ideologiyasının tərəfdarları belə hesab edirdilər ki, türk olmaq həm də islamçı olmaq deməkdir. Əhməd bəy Ağaoğlu göstərirdi ki, İslam türk üçün milli və irqi dindir və türkçülük hərəkatının iştirakçısı islamı qəbul etməlidir. Ziya Göy Alp da türkçülüyün qayəsinin müasir bir islam türkçülüyü olması fikrini müdafiə edirdi **[2: s. 24].**

Məhz Rusiyada əzilən bir kütlənin ideologiyası kimi meydana çıxan türkçülüyün formalaşmasında ucqarlarda milli burjuaziyanın meydana gəlməsi və inkişafı əsas rol oynadı. Türkçülərin fikrincə, Rus imperiyası çökərsə, Türkiyənin Turana çevrilməsi yolunda bir maneə qalmayacaq, Rusiya viran, Türkiyə Turan olacaq! **[2: s. 24].**

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 2, 2025*
*Səh. 246-252*

Bu mübarizədə daha qətiyyətli olan Rusiya türkləri çara qarşı tələblərlə çıxış edir, yaranmış daha mütərəqqi yeni ziyalı təbəqəsi türkçülüyü və maarifçiliyi növbəti mərhələyə ötürürdülər. Bu, siyasi türkçülüyün inkişafına təkan verdi və milli cəfakeşlərin, fədailərin sayəsində türkçülük milli ideyadan milli ideologiyaya çevrildi.

Çar senzurası ilə qarşı-qarşıya milli-azadlıq ideyalarını təbliğ edən ziyalılar bu işdə mətbuatın misilsiz rolundan istifadə etdilər. Türkçülüyün, islami dəyərlərin və müasirliyin təbliğində aparıcı rol oynayan mətbuat orqanları kimi, "İqbal"da öz fəaliyyətində qabaqcıl ziyalıların ideya və fikirlərinə istinad edirdi.

Məlumdur ki, XIX əsrin II yarısında Rusiya müsəlmanlarının mənəvi milli-ideoloji rəhbəri olan İ.Qaspiralı "Tərcüman" qəzetinin fəaliyyəti ilə, parçalanmış və hüquqları əlindən alınmış türkdilli xalqları birləşdirmək missiyasını yerinə yetirirdi. XX əsrin əvvəllərində azadlıq və müstəqillik uğrunda mücadilə edən bir xalqın milli kimliyini dərk etmək, iradəsini ifadə etmək istiqamətində sələflərinin işini davam etdirən "İqbal" xalqın gələcək taleyinin müəyyənləşməsində həlledici rol oynadı. "İqbal"ın səhifələrində türkçülüyün təbliğinə həsr olunmuş çoxsaylı yazılara rast gəlmək mümkündür. Bunlardan biri də qəzetin 11 və 17-ci saylarındakı məqalədir. İ.Qaspiralıya həsr edilmiş *"Yenə böyük bir ziya. Bir adamın əhəmiyyəti"* adlı bu geniş məqalə xalqın və millətin həyatında mühüm yer tutan, təkbaşına fəaliyyəti ilə milyonların və bütünlükdə bir xalqın gələcək işıqlı həyat yolunu müəyyən edən böyük tarixi şəxsiyyətin fəaliyyətinə həsr edilib. S.E.İbrahimov yazırdı ki, yalnız bir kişinin əhəmiyyəti bəzən milyonların, hətta bütün bir millətin əhəmiyyətinə bərabər olur. Bir adamın, bir qəhrəmanın fəaliyyətəindən bir millət canlanır, inqiraz və əzmihilal vadisindən xilas olur və kəsbi ehtişam edir. Belə qəhrəmanların bəsirəti bütün bir millətin şan və şövkətinə bais olur ki, məhz milyonlarla insan onların sayəsində səadətlə, həşmətlə yaşamağa nail ola bilir **[3: s.2].**

İ.Qaspiralının tatar milləti ilə bağlı qəzetin 74-cü sayında dərc edilmiş məqaləsi Rusiya türklərinin tarixinə qısa bir nəzərdir. Müəllif məqalədə tarixən Rusiya ərazisində yaşayan türklərin noqay, tatar, başqırd, misar və s. bu kimi müxtəlif adlarla adlandırılmasına qəti etiraz edərək bildirir ki, *tatar milləti nə vaxt və nərədən çıxıb dəsti qıpçaq ilə bəlğarə gəlib birləşmiş? Avropadan Afriqadan gəlmədigi, Ameriqa və Avstraliyadan keçmədigi məlum... Tarixlərə müraciət edilsə: Yunan, Roma, əski İran və Hind tarixlərində "Tatar" ismi gựrьlmьyor, 3in tarixin-də "tatar" və digər təbir ilə "tatar" ismində bir moğol qibləsi yad olunuyor... Çingiz xan hücumundan mьqəddəm rus tarixlərində dəxi "tatar" sözü görülmüyor"* **[4: s.3].**

Müəllif Qara İdil çayı, Ağ İdil, çalmaq İdil boylarında yerləşmiş və dil etibarilə Türk, din etibarilə müsəlman olan xalqları "tatar"ların övladı kimi təqdim edilməsini çox böyük yanlışlıq və haqsızlıq, türklüyümüzə qarşı aparılan bir siyasət və qərəz adlandıraraq tarixi faktlar əsasında buna aydınlıq gətirir, şimali terklərin tatar adı ilə adlanmasını təsadüfi xəta adlandırır. Sultan Mirzə ilə Əbiəlqazi Bahadır

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 2, 2025*
*Səh. 246-252*

xanın məşhur əsərlərindən misal çəkən müəllif "Bəbirnamə"də qismən türklərdən bəhs edildiyini bildirir, yazıldığı həmin tarixə tatar şəcərəsi deyil, məhz türk şəcərəsi adı verdiyini qeyd edir. Müəllif məhz çinlilərin 20 əsrlik şəhadətini, tarixlərin təkrarını, coğrafi məlumatların dəqiqliyini, dilimizin həqiqiliyini türkçülük üçün əsas hesab edir **[4: s.3].**

Zaman baxımından çox az, lakin əhəmiyyəti baxımından çox zəngin bir fəaliyyəti özündə daşıyan "İqbal" "türkləşmək, islamlaşmaq, avropalaşmaq" şüarının təbliği ilə Azərbaycançılığa səsləyən böyük sənətkarların yaradıcılığı ilə ümumilikdə bütün cəmiyyətin şüur, düşüncə və həyata baxış tərzinin keyfiyyətcə yüksəlişinə nail olurdu. Nəinki Avropanın, eləcə də dünyanın inkişafına uyğunlaşmaq, demokratik dövlətçilik prinsiplərini mənimsəmək, elm, mədəniyyət və yaşam tərzində Avropanın mütərəqqi ideyalarını tətbiq etmək, bununla bərabər, soykökünə, dininə bağlılığı unutmamaq, adət-ənənələrinə sədaqət göstərmək qəzetin əsas ideoloji istiqamətlərindən idi. Ə.Hüseynzadənin məhz islamı və türklüyü qoruyub saxlamaqla yeniləşməyin mümkün olması prinsipinə istinad edərək "İqbal" *türkləşmək, islamlaşmaq, avropalaşmaq* şüarlarını təbliğ edir, mədəni yaşayış üçün milliyyət, beynəlmiləlçilik və əsriyyəti 3 əsas kimi göstərir, ana dilinin, dini bilgilərin və elmin vacibliyini təsdiq edir, Ə. Hüseyzadənin islam əqidəli, türk qanlı, Avropa qiyafəli insan timsalını dəstəkləyirdi**.**

Məlumdur ki, dövlətçilik milli ideologiya ilə güclü və qüdrətli olur. Rusiya tərkibində, o cümlədən Zaqafqaziyadakı müsəlmanların islam dininə olan meyil, arzu və istəkləri onları nə ərəb elminə, nə də ərəb mədəniyyətinə yaxınlaşdırmadı, türkləri ərəbləşdirmədi, onların "türk oğlu türk qalmalarına" əngəl olmadı. Gərgin və qarışıq ictimai-siyasi bir dövrdə yaşadıqları mühit və yad təsirlər nə qədər güclü olsa da, türklər dinlərinə sadiq qalaraq, öz dillərini, ədəbiyyatlarını, mənsubiyyət və soyköklərini qoruya bilmişdilər."İqbal"ın *826-cı* sayında dərc edilmiş məqalə rusların "Rojdestvo" adlandırdıqları Yeni il bayramı ilə əlaqədar yazılmışdır. M.Ə.Rəsulzadənin "Qurama" başlığı ilə dərc edilən bu məqaləsi müəlifin türklərin milad bayramını qeyd etməsi məsələsinə münasibətini ifadə edir: *"Nənəmin quraması məni düşündürdü. Niyə bizim quramamız olmasın?... Varsın "İqbal"ın da bir quraması olsun."* **[9: s.3]**

"Rojdestvo" (yəni miladi məsih) bayramında rusların yolka bəzəyərək, evin ortasına bənd etmələri və uşaqların əl-ələ verərək onun ətrafına dolanmalarını məşəl oyunu ilə müqayisə edən müəllif bunu Novruz tərtibatı ilə müqayisə edib deyir:

*"Hakim millətin hakim adətlərindən birisi də yolka idi... Bakıya bələd olanlar bilirlər ki, İndi bir çox müsəlman evlərində də yolka bəzəyi var... Xalq özünə hakim olanların dinində olmasa belə, hər halda adab və əxlaqına istər-istəməz boyun əymək məcburiyyətindədir... İstəyərək boyun əyənlərə kimsənin canı acımaz. Öl canın çıxsın, yeridir sənə - deyərlər"* **[9: s.3].**

Azərbaycançılıq, türkçülük milli ləyaqət və dövlətçiliklə sıx bağlıdır. Azərbaycançılığın əsasında qan bağlılığı və din bağlılığı (ittihadçılılıq) dayanır. Bunlar azərbaycançılığın əsas prinsipi olan vətəndaşlıqda birləşir. “İqbal” dini birlik və ideoloji inam forması olan ümmətçiliyin Şərqdə dövlət təşkil etmək qüdrətində olmasına inanır, Azərbaycanda dövlətçiliyin mövcudluğu üçün dil, torpaq, millət və hakimiyyət amillərinin zəruriliyini göstərir, “Azərbaycan”, “azərbaycançılıq”, “türkçülük” və milli-mənəvi dəyərlərin qarşılıqlı əlaqəsi məsələsini önə çəkir, bunları milli istiqlaliyyətin əldə edilməsinin mühüm şərti və onu qüvvətləndirəcək əsas hesab edirdilər.

“İqbal” qəzetində türkçülük ideyaları və islami dəyərlərə həsr olunmuş tarixə istinad edən yazılar olsa da, mövcud dövrlə bağlı, real hadisələri də publisistik və bədii şəkildə qələmə alır, maarifləndirmə yönündə mətbuatın hərtərəfli funksiyasını yüksək qiymətləndirirdilər. Ü. Hacıbəyli rus aliminin dilindən nəql etdiyi “Ordan burdan” başlıqlı məqalələrindən birində həyati gerçəkliyi əks etdirərək, əsrin əvvəllərində kütlənin öz soykökünə və dini mənsubiyyətinə münasibətini ifadə edir. Qafqazda olan alim qarşısına çıxan şəxslərdən hansı millətə mənsub olduqlarını soruşduqda, hər biri mənsub olduğu millətin adını çəkərək, biri ləzgi, digəri gürcü, bir başqası erməni olduğunu bildirir. Müsəlmandan isə mənsub olduğu milləti soruşduqda *müsəlman* olduğunu söyləyir, öz millətindən qətiyyən xəbərdar olmadığı bəlli olur. Millətin din üzərində deyil, dil və mədəniyyət birliyi üzərində bərqərar olduğu bildirən müəllif fikrini belə əsaslandırır: *“Qafqaz türkləri nə tövr baxəbər olsunlar ki, milli məktəblərimizdə dərs oxuyan uşaqların ataları məktəbə gəlib papaqlarını yerə çırpırlar və diyorlar ki, mənim oğluma iki şeydən dərs ver, birisi fars dili, birisi rus dili...”* **[7: s.3].**

Milləti oyatmaq, maarifləndirmək, onu soykökünü tanıyan, kimliyini bilən millət kimi formalaşdırmaq istəyini ifadə edən M. Ə. Rəsulzadə Şeyx Cəmaləddin Əfqaninin fikrinə əsaslanaraq, bütün İslam aləminin yaşaya bilməsi üçün müsəlmanların milli şüura sahib olmalarının vacibliyini vurğulayırdı. Hələ 1911-ci ildə *“Milliyyət xaricində səadət yoxdur. Dilsiz milliyyət olmaz”* **[8: s.2]** - deyə bəyan edən M. Ə. Rəsulzadənin bu fikri İqbalçıların da əsas şüarlarından idi.

Bu elə bir dövr idi ki, qardaşlıq və müsəlmanlıq unudulmuş, xoşgörünün yerini zülm və güc tutmuş, şəfqət və mərhəmət aradan qalxmış, insanlarda ümidsizlik baş qaldırmışdı. Bu vəziyyət müxtəlif ixtilaflara yol açır, kimi qurtuluş yolunu neftin gətirdiyi milyonlar hesabına zənginləşməkdə, kimi təbəəlikdə, kimi İslamda axtarır, kimi də Qərbə üz tuturdu. Belə bir dövrdə azəri, rus, çərkəz, türk, kürd və digər millətlərin nümayəndələrinin sığındığı bu kiçik məmləkətdə birlikdə azad və firavan yaşamanın yolu, qurtuluş yolu birlikdə, ittifaqda olsa da, hər bir xalqın, millətin sahib olduğu və qoruyub saxlamalı olduğu milli – mənəvi dəyərlər var. Bir xalqın, millətin dəyəri də onun tarixi ilə və mənsub oduğu milli – mənəvi dəyərlərə bağlıdır **[8: s.2].**

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 2, 2025*
*Səh. 246-252*

Azərbaycan xalqının əsrin əvvəllərindəki acınacaqlı taleyi həm də milli mənsubiyyət məsələsində açıq şəkildə özünü büruzə verirdi. Uzaqgörən, geniş və əhatəli dünyagörüşünə malik İqbalçılar xalqın həm iqtisadi, ictimai, həm də mədəniyyət və maarif sahəsindəki geriliyinin ən əsas və ən mühüm səbəbini xalqın öz milli mənsubiyyətindən, soykökündən, milli kimliyindən, mənsub olduğu dərin köklərə malik adət-ənənələrindən uzaq düşməsində görürdülər.

"İqbal" qəzetinin 547-ci sayında dərc edilən "Bizdə milliyyət" (H.İ.Qasımov) məqaləsi sosial tərəqqi məsələləri ilə bağlı olub, bir neçə baxımdan maraq doğurur. Belə ki, müəllif millətlərin tərəqqi səviyyəsini həm də fərdlərin öz dini etiqadlarına münasibətlərinə, milli və dini bayramlara göstərdikləri diqqət və həssasiyyətlərə bağlayır. Hadisələri müqayisəli şəkildə təhlil edən müəllif məqalədə müsəlmanların öz müqəddəs günü, dini bayramı olan İslam Peyğəmbəri Hz. Məhəmməd Mustafanın mövludunu yada salır, həmin mübarək bir günlə əlaqədər nə bir yığıncaq, nə də bir toplanışın olmadığını təəssüflə vurğulayır, müsəlmanların öz dini bayramlarını deyil, milad bayramında yolkalar quraraq, heç bir məsrəfdən çəkinməyərək yeni ili təntənə ilə qarşıladıqlarını və bunu əsl bayram kimi qeyd etdiklərini bildirir **[10: s.2].** Müəllifin təəssüfünə səbəb olan məqam millətimizdə, xüsusən gənclərdə milli təəssübkeşlik hissinin zəifliyi, xalqımızın öz dininə və dini bayramlarına qarşı laqeydliyi və bu laqeydlikdən doğan acı nəticələrdir. Müəllif xalqın əksəriyyətinin öz bayramlarına vermədiyi dəyəri digər bayramlara göstərdiyi aşırı diqqət fonunda müqayisə edərək bu yolla vəziyyətin ciddiliyini qabartmağa çalışır, bu bayram münasibətilə on minlərlə müsəlmanın öz paralarını həva və həvəslərinə uyaraq, boş yerə sərf etdiyini acı təəssüflə qeyd edir **[10: s.2].**

**Nəticə**

Milli özünüdərkin formalaşdırılması baxımından böyük əhəmiyyət daşıyan belə çoxsaylı məqalələrdə İqbalçılar açıq tənqidlə xalqı oyandırmağa, nöqsanlardan dərs çıxarmağa, milli-mənəvi və dini dəyərlərimizə saygı ilə yanaşmağa səsləyirlər: *"Yetər bu qədər özümüzü əskiltmək və bu qədər millətə həqarət ilə baxmaq... Əgər onlarda həqiqətən millətpərəstlik varsa öz əziz bayramların bir dərəcə müqəddəs saxlasınlar"* **[176].**

İqbalçılar maarifçilik, özünüidarə, azadlıq ideyalarını təbliğ edib, Avropa həyat tərzini müdafiə etsələr də, dini etiqad, milli mənsubiyyət məsələlərində fərqli mövqe tutur, gündəmə gətirdikləri məsələləri siyasiləşdirir, çar hökumətinin müstəmləkə zülmünə və ruslaşdırma siyasətinə qarşı türkçülük mövqeyindən yanaşaraq, milli azadlıq hərəkatının mahiyyətini tamamilə aydın şəkildə ifadə edirdilər. Məhz bununla türkçülük özünün yeni mərhələsinə yüksəldi, hələ XIX əsrdə Osmanlı ziyalılarının yazılarında ifadə olunan türkçülük ideyaları XX əsrin əvvəllərində Azərbaycanda yeni forma və məzmun qazandı. Türk xalqlarının birliyi, əbədi bölünməzliyi, islami dəyərlərin təbliği, milli mənlik şüurunun formalaşması ilə bağlı yazılar "İqbal"ın ilk sayından başlayaraq sonadək hər sayında özünü göstərir,

istiqlaliyyət yolunda milli qürur, təəssübkeşlik duyğularını önə çəkir, milli birliyə səsləyir. İqbalçılar maddi inkişafın və mənəvi yüksəlişin yalnız islami dəyərlərə söykənərək, soykökünə dayanaraq mövcud olduğunu deyir, xalqın siyasi və milli düşüncəsini inkişaf etdirirdilər.

## ƏDƏBİYYAT


1. İbrahimov S.E.Yenə böyük bir ziya. Bir adamın əhəmiyyəti //İqbal -1912, 26 mart, № 17, s.2. 166
2. İsmayıl bəy. Tatar milləti // İqbal -1912, 31 may, №74, s.3. 168
3. İbrahimov S.E. İslamın müqəddəratı // İqbal -1912, 4 iyun, № 77, s.2.148
4. Qasımov H.İ. Hümmət lazım // İqbal"- 1914, 15 yanvar, № 553, s.2. 180
5. Qafarov V. Türkiyə-Rusiya münasibətlərində Azərbaycan məsələsi (1917-1922). Bakı, Azərnəşr, 2011. s. 33-35. 44
6. Qasımov H.İ. Bizdə milliyyət // İqbal"- 1914, 6 yanvar, № 547, s. 2. 177
7. Ordan–burdan //İqbal – 1912, 12 sentyabr, №159, s.3. 119
8. Rəsulzadə M.Ə. Dil ictimai mühüm bir amil. Seçilmiş əsər. II c., s. 231
9. Rəsulzadə M.Ə. Rojdestvo // İqbal – 1914, 28 dekabr, N 826, s.3 218
10. Ziya Göy Alp,Türkçülüyün əsasları. Kamer yayinları. İstanbul, 1996. 53 səh, s.24. 80


**Rəyçi: Filologiya üzrə fəlsəfə doktoru**
**Məmmədova Ruxsarə Əvəz qızı**